# "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 4-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş tibbi sığorta müqaviləsinin formasını və bağlanma qaydasını müəyyən etsin;

həmin Qanunun 4-cü maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş tibbi sığortanın ayrı-ayrı növlərinə aid qaydalarını və icbari tibbi sığorta münasibətlərinin şamil edilmədiyi şəxslərin kateqoriyalarını müəyyən etsin;

həmin Qanunun 5-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş tibbi sığorta şəhadətnaməsinin formasını və onun tətbiqi qaydalarını müəyyən etsin;

həmin Qanunun 10-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş icbari tibbi sığorta haqlarının məbləği və ödənilmə qaydasını müəyyən etsin;

həmin Qanunun 11-ci maddəsində nəzərdə tutulmuş icbari tibbi sığorta proqramını təsdiq etsin;

həmin Qanunun 15-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş icbari tibbi sığorta sistemində tibbi xidmətlər üçün tarifləri müəyyən etsin;

həmin Qanunun 3-cü maddəsinin ikinci hissəsinin ikinci abzasında, 7-ci maddəsinin ikinci hissəsində, habelə 10-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş icra hakimiyyəti orqanları barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın

səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

Həmin Qanunun 4-cü maddəsinin dördüncü və beşinci hissələrində, 5-ci maddəsinin dördüncü hissəsində, 6-cı maddəsinin birinci hissəsinin ikinci abzasında və ikinci hissəsinin ikinci abzasında, 10-cu maddəsinin birinci hissəsində, 11-ci maddəsində və 15-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 6-cı maddəsinin ikinci hissəsinin beşinci abzasında və 9-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;

həmin Qanunun 16-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi həyata keçirir.

həmin Qanunun 12-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və onun yerli orqanları həyata keçirir.

(Çıxarılıb)

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 dekabr 1999-cu il**
**№ 241**